Əl işdən soyumaz, ürək arzudan...



# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

№ 36-37 (7441-7442) ❖ 1933-cü ildən nəşr olunur ❖ Cümə, 11 avqust 2017-ci il. ❖ Qiyməti 40 qəpik


## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

Prezident İlham Əliyev avqustun 9-da Belarus Dövlət Sərhəd Komitəsinin sədri Anatoli Lapponu qəbul edib.

Görüşdə Azərbaycan-Belarus ikitərəfli münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb, iki dövlətin sərhəd xidmətləri arasında mövcud əməkdaşlığın əlaqələrimizin daha da möhkəmləndirilməsi işinə töhfə verdiyi bildirilib.

❖ ❖ ❖

Prezident İlham Əliyev avqust ayinin 9-da Bakının Yasamal rayonunun keçmiş “Sovetski” ərazisində yenidən qurulan “Statistika” dairəsinin, Nəriman Nərimanov prospektinin və Abdulla Şaiq küçəsinin açılışında iştirak edib.

❖ ❖ ❖

Prezident İlham Əliyev avqustun 8-də Azərbaycan Respublikasına rəsmi səfərə gələn Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovu qarşılayıb.

Hər iki ölkənin dövlət başçılarının iştirakı ilə Azərbaycan-Türkmənistan sənədlərinin imzalanması mərasimi olub.

“Azərbaycan Respublikası ilə Türkmənistan arasında Strateji tərəfdaşlıq haqqında Bəyannamə”ni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistanın Prezidenti Qurbanqulu Berdiməhəmmədov imzalayıblar.

❖ ❖ ❖

Prezident İlham Əliyevin sədrliyi ilə avqustun 4-də Qaxda barama, tütün və fındıq istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsi keçirilib.

❖ ❖ ❖

Prezident İlham Əliyev avqustun 3-də Balakən, Zaqatala və Qax rayonlarında səfərdə olub. Dövlət başçısı həmin rayonlarda bir sıra istehsal müəssisələrinin, sosial obyektlərin və yolların açılışında iştirak edib.

❖ ❖ ❖

Avqustun 2-də Prezident İlham Əliyev yenidən qurulan Pirşağı-Novxanı dənizkənarı və Binəqədi-Novxanı-Corat avtomobil yollarının açılışında iştirak edib.

❖ ❖ ❖

Cənab İlham Əliyev iyulun 31-də ABŞ-ın Arizona ştatının Nümayəndələr Palatasının sədri Cavan Mesnardı qəbul edib.

Azərbaycan Prezidenti qəbulda Azərbaycan ilə ABŞ arasında siyasi, iqtisadi, enerji, təhlükəsizlik sahələrində ikitərəfli münasibətlərin və eləcə də ölkəmizin ABŞ-ın ayrı-ayrı ştatları ilə əməkdaşlığının çox yaxşı səviyyədə olduğunu diqqətə çatdırıb.

# Prezident İlham Əliyevin sədrliyi ilə barama, tütün və fındıq istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsi keçirilib






Avqustun 4-də Qaxda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə barama, tütün və fındıq istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsi keçirilib.

Dövlətimizin başçısı müşavirəni giriş nitqi ilə açıb.

Sonra Qax Rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyev, Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov, “Şəki İpək” ASC-nin idarə heyətinin sədri Nizami Qəribov, Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə, Zərdab Rayon İcra Hakimiyyətinin başçısı Lütvəli Babayev, Fındıq İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri İsmayıl Orucov, Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev, Zaqatala rayonu “Dağlar” fermer təsərrüfatının rəhbəri Telman Həsrətov və Balakən Rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayev çıxış ediblər.

Prezident İlham Əliyev respublika müşavirəsində yekun nitqi söyləyib.

# Prezident İlham Əliyev: Ərzaq təhlükəsizliyi ilə bağlı əldə edilmiş nailiyyətlər çox sevindiricidir

“Ərzaq təhlükəsizliyi prioritet məsələlərdəndir və bu sahədə əldə edilmiş nailiyyətlər çox sevindiricidir. Növbəti illərdə isə daha böyük nəticələr gözlənilir.”

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Qaxda keçirilən barama, tütün və fındıq istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsində bildirib.

Qarşıda duran əsas vəzifələrdən birinin ərzaq təhlükəsizliyi olduğunu diqqətə çatdıran dövlətimizin başçısı deyib: “Biz əsas diqqətimizi bu sahəyə yönəltdik. Çünki bu, prioritet idi. Yaşlı nəslin nümayəndələri yaxşı bilirlər ki, sovet vaxtında Azərbaycan özünü ətlə, yağla, südlə, toyuq əti ilə təmin edə bilmirdi, bu məhsullar başqa respublikalardan gəlirdi. Biz isə öz növbəmizdə pambıq, üzüm, meyvə, tərəvəz, tütün, fındıq istehsal edib, başqa respublikalara göndərirdik. Ancaq müstəqillik dövründə ərzaq təhlükəsizliyi məsələləri ön plana çıxdı. Ona görə, biz əsas diqqəti bu sahəyə yönəltdik. Bunun nəticəsində bu gün taxılçılıqda böyük inkişaf var. Düzdür, bu, hələ ki, bizi tam qane edə bilməz, biz özümüzü hələ tam təmin etmirik, ancaq inkişaf var. Ət istehsalı Azərbaycanın tələbatını demək olar ki, ödəyir. Növbəti illərdə görüləcək tədbirlər nəticəsində biz hətta böyük ixrac potensialına da malik olacağıq. Biz özümüzü toyuq əti ilə 100 faiz, süd və süd məmulatları ilə təqribən 80 faiz səviyyəsində təmin edirik. Azərbaycandan böyük həcmdə meyvə-tərəvəz ixrac edilir. Yəni, ərzaq təhlükəsizliyi məsələləri prioritetdir. Deyə bilərəm ki, bu sahədə əldə edilmiş nailiyyətlər çox sevindiricidir. Növbəti illərdə daha da böyük nəticələr olacaq”.